https://doi.org/10.59849/2410-5600.2026.1.165
UOT: 94

**Sevinc Muxtarova**
*Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: seva_mukhtarova@mail.ru*

# MƏHV OLAN MİLLƏT KÜTLƏSİNİN NALƏSİ: İRƏVAN MÜSƏLMANLARININ FACİƏSİ "AZƏRBAYCAN" QƏZETİNİN SƏHİFƏLƏRİNDƏ

**Xülasə**

"Azərbaycan" ictimai-siyasi, ədəbi-bədii qəzet olduğu üçün onun mövzu dairəsi çox geniş olmuşdur. Qəzetdə günümüzdə xüsusi əhəmiyyət kəsb edən Qarabağ, Zəngəzur bölgələrinə, əsasəndə İrəvan quberniyasına dair materiallar böyük maraq doğurur. 1918-1920-ci illər Cənubi Qafqazın siyasi xəritəsinin yenidən formalaşdığı dövr olmaqla yanaşı, İrəvan quberniyasında yaşayan azərbaycanlı müsəlman əhalisi üçün kütləvi qırğınlar, zorla köçürülmə və etnik təmizləmə siyasəti ilə yadda qalmışdır. Ermənistan Respublikasının yaradılması və daşnak silahlı dəstələrinin fəaliyyəti bölgədəki azərbaycanlı əhalinin demoqrafik strukturunu tamamilə dəyişdirmişdir.

1918-1920-ci illərdə Zaqafqaziya respublikaları arasında mövcud olmuş ərazi mübahisələri olduqca mürəkkəb xarakter almışdı. Bu münaqişələrin səciyyəvi cəhəti ondan ibarət olmuşdur ki, mübahisəli ərazilərin etnik müsəlman əhalisi bir qayda olaraq, zərər çəkən tərəf olmuş, qonşu respublikalar, xüsusən də erməni silahlı qüvvələri tərəfindən təcavüzə məruz qalmışdır.

Nəticədə, 1918-1920-ci illərdə Ermənistanda soyqırıma məruz qoyulan yarım milyondan artıq azərbaycanlı əhalidən öz canlarını xilas edə bilən əhalinin əsas hissəsi qaçqın kimi Azərbaycanda sığınacaq tapmışdı.

Bu dövr yalnız kütləvi insan tələfatı ilə deyil, həm də minillik mədəni irsin dağıdılması, bölgənin demoqrafik xəritəsinin dəyişdirilməsi və yüz minlərlə insanın öz yurd-yuvasından məhrum edilməsi ilə nəticələnmişdir.

***Açar sözlər:*** *AXC, "Azərbaycan" qəzeti, İrəvan quberniyası, müsəlmanlar, faciə*

## Giriş

*Rusiya İmperiyasının süqutu Cənubi Qafqazda dərin siyasi və etnik böhran yaratmışdır. Bu böhran xüsusilə çoxmillətli ərazilərdə yaşayan xalqlar üçün faciəvi nəticələr doğurmuşdur.Tarixi Azərbaycan torpaqlarından biri olan İrəvan quberniyasında yaşayan müsəlman əhali bu dövrdə sistemli zorakılığa, qırğınlara və etnik təmizləməyə məruz qalmışdır. Dövrün Azərbaycan mətbuatı, xüsusilə "Azərbaycan"qəzeti bu hadisələri canlı faktlar və şahid ifadələri ilə sənədləşdirmişdir.*

*"Azərbaycan" ictimai-siyasi, ədəbi-bədii qəzet olduğu üçün onun mövzu dairəsi çox geniş olmuşdur. Əlbəttə, onun əsas vəzifəsi həyata yeni qədəm qoyan Müstəqil Azərbaycan Cümhuriyyətinin, milli hökumətin hər işindən xalqı xəbərdar etməkdən, ölkədə baş verən hadisələri düzgün və obyektiv qiymətləndirməkdən ibarət idi. Ona görə də qəzet fəaliyyətə başladığı ilk gündən mütərrəqqi ruhlu vətənpərvər insanların tribunasına çevrildi. Fəaliyyətə başladığı qısa müddət ərzində həmişə dövr üçün ən aktual olan məsələlərə toxunmuş, hadisələrə bacarıqla nüfuz etmişdir.*

1904-cü və 1905-ci illərdən bəridir ki, Qafqazda ermənilərlə müsəlmanların arası gərginləşmişdir. Bu gərginləşmənin ən çox zərbəsi müsəlmanlara dəymişdir və bu zərbənin ən ağırı da əsasən İrəvan quberniyasında yaşayan müsəlmanların üstünə düşmüşdür.

Məlumdur ki, ermənilər çoxdan bəri özləri üçün padşahlıq qurmağı arzu edirdilər. Bu arzularına çatmaq uğrunda da hərtərəfli hazırlanırdılar. Fürsət ələ düşəndə qabaqlarına müsəlmanlar tərəfindən əngəl çıxmasın deyə deyilən illərdə, Qafqazda səbəbsiz müsəlmanlarla qanlı vuruşmalar aparmışdılar. Bu vasitə ilə ermənilər müsəlmanları qorxudub, gözlərinin odunu alıb, vaxtında onları susdurmaq istədilər. Hadisələrin səbəbi, vuruşmaların başlanğıc yeri olan Qafqazın hər yerində, hər zaman ermənilər olduqları halda xüsusi agentlər və qəzetlər vasitəsi ilə hücum etmiş olan özlərini məzlum və hücumlarına düçar olmuş müsəlmanları zalım göstərməyə çalışmışdılar. Ermənilər bu qışqırıqlarını elə bir ustalıqla başladılar ki, özlərini guya müsəlmanların əlindən qurtarmaq, məzlum və əlacsız olduqlarını göstərmək üçün hətta dövlət adamlarından və hökumətlərindən kömək istədilər. Bunların səsləri Avropaya, hətta Amerikayadək gedib çatdı.

XX əsrin əvvəllərinə qədər İrəvan quberniyasında azərbaycanlılar əhalinin mühüm hissəsini təşkil edirdi. Rəsmi statistik məlumatlara görə, 1916-cı ildə quberniyada onlarla müsəlman kəndi mövcud idi və bu kəndlər əsasən azərbaycanlı türklər tərəfindən məskunlaşdırılmışdır. Lakin 1917-ci ildən sonra erməni silahlı dəstələrinin fəaliyyəti nəticəsində bu yaşayış məntəqələri sistemli şəkildə dağıdılmağa başlandı.

Qəzetdəki materiallar Azərbaycanın bilavasitə tarixini əks etdirmişdir. Onun səhifələrində Azərbaycan hökumətinin qərarları, parlament üzvlərinin çıxışları, paytaxtda və bölgələrdə baş verən hadisələrin təfərrüatları, müxtəlif təhlillər, xatirələr öz əksini tapmışdır. Qəzetdə günümüzdə xüsusi əhəmiyyət kəsb edən Qarabağ, Zəngəzur bölgələrinə, əsasəndə İrəvan quberniyasına dair materiallar böyük maraq doğurur [5].

1918-1920-ci illər Cənubi Qafqazın siyasi xəritəsinin yenidən formalaşdığı dövr olmaqla yanaşı, İrəvan quberniyasında yaşayan azərbaycanlı müsəlman əhali üçün kütləvi qırğınlar, zorla köçürülmə və etnik təmizləmə siyasəti ilə yadda qalmışdır. Ermənistan Respublikasının yaradılması və daşnak silahlı dəstələrinin fəaliyyəti bölgədəki azərbaycanlı əhalinin demoqrafik strukturunu tamamilə dəyişdirmişdir.

1918-ci ilin mayında Zaqafqaziyada üç müstəqil dövlət – Gürcüstan, Azərbaycan və Ermənistan dövlətləri yaransa da, onların arasında sərhədlər dəqiq müəyyən edilməmişdir. Çar Rusiyası dövründə Qafqaz canişinliyinə tabe olan quberniyalarda azərbaycanlıların, gürcülərin və ermənilərin qarışıq şəkildə məskunlaşması bu sərhədləri müəyyən etməkdə çətinlik yaradırdı.

İrəvan quberniyası çar Rusiyası dövründə etnik baxımdan qarışıq bölgə idi. 1916-cı il statistikası göstərir ki, İrəvan şəhərində əhalinin yarıdan çoxu azərbaycanlı müsəlman, kəndlərin çoxunda isə əksəriyyət azərbaycanlı idi.

1918-ci ildə Ermənistan Respublikasının yaranması bölgədə azərbaycanlı əhali üçün yeni və ciddi təhlükə yaratdı. Ermənistanda siyasi hakimiyyət daşnak qruplarının əlində idi.

AXC Parlament Komissiyasının məlumatına görə, İrəvan quberniyasında yaşayan müsəlmanlara qarşı təzyiqlər dövlət səviyyəsində aparılan siyasətin tərkib hissəsi idi.

Ümumiyyətlə, 1918-1920-ci illərdə Azərbaycanla Ermənistan və Azərbaycanla Gürcüstan Respublikaları arasında 11 zonada mübahisəli ərazilər problemi meydana çıxmışdı. Həmin ərazilərin bəzilərində mübahisələr dinc yolla, yəni əhalinin öz müqəddəratını azad təyinetmə prinsipi ilə həll edildiyindən silahlı müdaxiləyə ehtiyac qalmamışdı. Əksər hallarda isə Ermənistan və Gürcüstan hökumətləri məsələni silah gücünə həll etməyə cəhd göstərdiklərindən problemin həlli daha da kəskinləşmişdi.

Zaqafqaziyada sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan Respublikası öz mübahisəsiz ərazilərindən Moskvanın təzyiqi ilə müxtəlif dövrlərdə təqribən 10 min $km^2$ ərazisini Ermənistan və Gürcüstana verməyə məcbur olmuşdur.

Azərbaycan qəzetinin səhifələrində ölkəmizin ictimai-siyasi, iqtisadi, elmi, hərbi quruculuq və mədəni həyatına dair yüzlərlə yazı dərc olunmuşdur: Qəzetin ayrıca mövzusu bütün dövrlərdə xarici himayəçilərə arxalanaraq ölkəmizdə at oynadan mənfur ermənilər və onların törətdikləri ağlasığmaz vəhşiliklər olmuşdur. Erməni daşnak qulduru Andronikin Zəngəzur, Naxçıvan, Qarabağ və digər rayonlarda xalqımıza qarşı törətdiyi vəhşiliklər, Ermənistan ərazisində yaşayan Azərbaycanlıların acı taleyi, onların kütləvi surətdə məhv edilməsi və ata-baba torpaqlarından qovulması, köçkünlük həyatı

haqqında çoxlu məlumatlar oxucuların diqqətinə çatdırılmışdır. Ən maraqlısı isə azərbaycanlıların soyqırımı, İrəvanın, Naxçıvanın, Qarabağın və Zəngəzurun tarixi barədə qəzet səhifələrində mütəmadi olaraq çap olunmuş məqalələrdir.

1918-1920-ci illərdə Zaqafqaziya respublikaları arasında mövcud olmuş ərazi mübahisələri olduqca mürəkkəb xarakter almışdı. Bu münaqişələrin səciyyəvi cəhəti ondan ibarət olmuşdur ki, mübahisəli ərazilərin etnik müsəlman əhalisi bir qayda olaraq, zərər çəkən tərəf olmuş, qonşu respublikalar, xüsusən də erməni silahlı qüvvələri tərəfindən təcavüzə məruz qalmışdır.

Qaçqınlar problemi ilə məşğul olmaq üçün hələ 1918-ci ilin martında Zaqafqaziya Seymi nəzdindəki Müsəlman fraksiyasının qaçqınlar şöbəsi yaradılmışdı [6, s.27]. Müsəlman fraksiyası Seym Hökuməti qarşısında məsələ qaldırmış, İrəvan quberniyasında müsəlmanlara qarşı edilən qırğınlara son qoyulması məqsədilə nümayəndə heyəti göndərilmiş, araşdırmaların nəticələri Seymin iclasında müzakirə edilmiş, qaçqınların vəziyyətinin müəyyən dərəcədə yüngülləşməsinə nail olunmuşdusa da, qırğınları dayandırmaq mümkün olmamışdı.

1918-ci ilin mayında əzəli Azərbaycan torpaqları olan İrəvan quberniyası ərazisində Ermənistan dövləti yaradılan zaman onun paytaxtının hansı şəhər olacağı müəyyən edilməmişdi. Azərbaycan hökuməti milli münaqişələrə son qoyulması məqsədilə mayın 29-da İrəvan şəhərinin paytaxt elan edilməsi üçün ermənilərə güzəştə getdiyini bəyan etmişdir. İrəvan Müsəlman Milli Şurası bu güzəştə dərhal öz etirazını bildirmişdi.

1918-ci il iyunun 4-də imzalanan Batum müqaviləsinə əsasən Ermənistan Respublikasının ərazisi təqribən 9 min km²-ə çatırdı və Ermənistan hökuməti Azərbaycana qarşı ərazi iddiası olmadığını bildirmişdi. Lakin Şərqi Anadoluda qırğınlar törətdikdən sonra türk qoşunlarının önündən qaçan erməni silahlı qüvvələri general Andranikin komandanlığı altında Gümrüdən Qarakilsəyə, oradan Dilican dərəsinə və Göyçəyə, sonra Naxçıvana, oradan da Zəngəzura adlayaraq həmin ərazilərdəki müsəlman kəndlərini viran qoymuşdu. Erməni silahlı qüvvələrinin Zəngəzurdan Qarabağı təhdid etməsi Azərbaycan hökumətini ciddi narahat edirdi [1].

1918-1920-ci illərdə Qərbi Azərbaycanda azərbaycanlılara qarşı ermənilər tərəfindən divan tutulmuş, qan su yerinə axıdılmışdır. Bunların içərisində "Azərbaycan" qəzetində Zəngəzur xəsa rəti, Zəngəzur müsəlmanlarının əhvalı, İrəvandan gələn fəryadlar, məhv olan millət kütləsinin naləsi, İrəvan müsəlmanlarının təşəbbüsü, İrəvan : Erməni müsəlman məsələsi, İrəvan hadisələri, Azərbaycan və Ermənistan başlıqlı məqalələr xüsusi əhəmiyyət kəsb edir. Həmin məqalələrdə İrəvan erməniləri ilə müsəlmanlar arasında baş verən hadisələrdən və Azərbaycan hökumətinin İrəvan erməniləri ilə müsəlmanlar arasındakı münasibətləri yaxşılaşdıraraq bir qaydaya salmasından bəhs edilmişdir. "İrəvan quberniyası müsəlmanlarının halı" adlı yazıda İrəvan quberniyasında yaşayan müsəlman əhalisinin türk əsgərləri köməyə gələnə qədər erməni daşnaqlarının törətdiyi vəhşiliklərindən cana gələn müsəlmanların pərişan, ümidsiz halda olduqları haqqında məlumat verilir. O zaman ermənilərin əmri ilə iki yüzdən artıq müsəlman kəndləri atəşə tutulmuş, iki yüz mindən artıq müsəlman kəndlisi yersiz və yurdsuz qalıb, olmazın əzab və cəfalarına, aclığa düçar olmuşdur. Zavallı əhali o qədər incimiş, o qədər bəlalara tutulmuşdu ki, türk əsgərləri İrəvan şəhərinə gələnə qədər şəhərdə yüz illərlə yaşayan, evə, bağa, mülkə malik olan müsəlmanlar bir sel axını kimi dövlətli, kasıb, qocalı, cavanlı öz əmlakını ataraq şəhərdən çıxmışdı. Tərk olunan kəndlər ya yanmış, ya erməni mühacirləri tərəfindən işğal olunmuşdur [1]. Ermənilər tərəfindən qaldırılan bu toqquşmalar nəticəsində İrəvan quberniyası müsəlmanlarının bir hissəsi məhv edilib, qalanları isə dağlara qaçmışdır. Nəticədə, Zaqafqaziya cümhuriyyətləri ilə Türkiyə arasında saziş bağlandığı zaman, bu sazişə görə Türkiyə əsgərləri Şəril və Sürməli qəzaları ilə İrəvan və Eçmiədzin qəzalarının bir hissəsini tutduqda, müsəlman əhalisindən salamat qalanları öz kəndlərinə qayıdıb öz işləriylə məşğul olmuşlar [4].

İrəvan quberniyasında Göyçə gölünün cənubi-şərqi tərəfində və Novo-Bayəzid mahalı daxilində 34-35-ə qədər müsəlman kəndləri mövcud idi. Andranikin quldur dəstələri Novo-Bəyazid qəzasının Göyçə nahiyəsinin Çamırlı, Şorca, Qayabaşı, Sarıyaqub, Daşkənd, Təzə Qoşabulaq, Qızılbulaq, Yuxarı Alçalı və Kərkibaş kəndlərini viran qoymuş, əhalinin əmlakını əlindən almış, qırğınlardan sağ qalan əhali dağlara çəkilməyə məcbur olmuşdu. Bu kəndlərin nümayəndələri

Gəncəyə gəlib hökumətin başçısı Fətəli xan Xoyskiyə müraciət etmiş, Novo-Bəyazid qəzasında müsəlmanlara qarşı qırğınlara son qoyulmasında köməklik göstərilməsini tələb etmişdilər.

O gözəl bağçalar içində, yaşıl ağaclar arasında gizlənmiş İrəvan şəhərinə indi baxıldıqda, bayquşlar məskənindən ibarət xarabalıqlar kimi görünməkdədir. İndi Qafqazın hər tərəfində səfil halda gəzişməkdə olan, özlərinə yurd, məişət axtaran İrəvan müsəlmanları ermənilər tərəfindən xarabalıqlara dönmüş həmin bağların, bağçaların, evlərin, mağazaların sahibləridirlər ki, indi İrəvanda bunların əmlakını ermənilər sahiblənib keyflər çəkmiş, o mülklərin sahibi bu müsəlmanlar isə qürbət ellərdə yersizlikdən, məişətsizlikdən göz yaşları tökmüşdülər. Yollarda ermənilər tərəfindən soyulmaqları, öldürülməkləri qorxusundan çıxa bilməyib indiyə qədər İrəvanda qalmış olan müsəlmanların halı isə İrəvanda erməni quldurlarının həyasız təcavüzləri və erməni hökumətinin insafsız sıxıntıları altında və İrəvan bahalıqları içində müsibətli günlərdən ibarətdir.

Erməni hökuməti İrəvanda "hökumət bank çeki" adı ilə beşyüzlük, yüzlük və əllilik olaraq bonlar çıxarmışdır. Bonların üstündə 1919-cu il noyabrın 29-na kimi xərclənə biləcəyi qeyd edilmişdir. Ondan sonra erməni hökuməti adına Parisdə hazırlanacaq pullar işlənəcəkmiş. Əvvəllər erməni hökumətinin pulu Zaqafqaz bonu idi. İndi özlərinin bu çeklərini ortaya çıxardıqdan sonra Zaqafqaz bonunun qiyməti İrəvanda olduqca artmışdır. Hökumətin bu çıxarmış olduğu çeklər əhali tərəfindən yaxşı qarşılanmamışdır. Bu çeklərin beşyüzlüyünə İrəvanda Qafqaz bonunun ancaq 400-450 manatını verirlər.

Əhalinin və hökumətin fəqir halına nisbətən, İrəvandakı bahalıq belə idi: çörək girvənkəsi arpa ilə buğda qarışıq olaraq 12 manata, qoyun əti 24, mal əti 18, İrəvan düyüsü girvənkəsi 22, kişmiş girvənkəsi 18-20, parça qənd 110-120, şəkər qəndi 60, manpası 80, neft 3 manata satılırdı. Arşın malı az tapılır. Kisəyi (xüsusi) arşını 30, çit 50-60 manat. Qab-qacaq tapılmırdı. Adi stəkanın biri 30 manat, ən alçaq, adi 7 nömrə lampanın biri 40 manat idi. Ayaqqabı yoxdur. Erməni Cümhuriyyətində ərzaq və ləvazimat belə bahalı qiymətlərdə olduğu kimi, ticarət də kəsilmişdir. Qorxusundan heç kim Erməni Cümhuriyyətinə mal aparmırdı. Erməni hökuməti pulsuzluqdan məmurlarına aylarca maaş verə bilmirdi. Bu hallardan dolayı Erməni Cümhuriyyətində əhali bir-birini çapıb taladığı kimi, hökumət məmurları da əhalini talamaqla məşğul idi. Bunun üçün Erməni Cümhuriyyətinin hər tərəfində böyük nizamsızlq, hərc-mərclik, talançılıq və quldurluq hökm sürməkdə idi. Çirkin təcavüzlər və hərc-mərclər içində ən çox zərərdə də olanlar varsa da, o da Erməni Cümhuriyyəti daxilində yaşayan müsəlmanlardır. Müsəlmanlar haqqında inkvizisiya zülmlərini andıracaq bu işgəncələr səbəbindən Erməni Cümhuriyyəti orada yaşayan müsəlmanlar üçün bir cəhənnəm halını almışdır.

Azərbaycan müsəlmanları nəcabətləri, vüqarı, asayişpərvərlikləri ilə iftixar etməli və sevinməlidirlər ki, Azərbaycan kimi cənnət bir məmləkətə malikdirlər və Azərbaycan daxilində bolluq, ucuzluq, rahatlıq içində azad, başıuca ömür keçirdikləri kimi, özlərindən başqa özgələrini də, digər millətlərdən olan Azərbaycan vətəndaşlarını da özləri kimi naz-nemət və rahatlıq içində bəsləyirdilər. Ermənilər İrəvanda müsəlman qatıq və çörək satanlarının yanına gəlib bir girvənkə qatıq, yaxud bir girvənkə çörək aldıqları halda, təzə çıxardıqları Qərbi Azərbaycan mövzusu beşyüzlük çeki verib artığını istəyirdilər. Buna görə də hər gün onlarca qatıq və çörək satan müsəlmanlar qəsdən divanxanalara sürüklənib cərimələnir, döyülürdülər. Bir tərəfdən də beləcə qatıqları, çörəkləri meydanda sahibsiz qalmaqla talanırdı. Zavallı İrəvan müsəlmanlarının yoxsul hallarının pərişanlığı daha da artır.

İngilislər İrəvandan getdikləri zaman erməni hökumətinə 50 baş qatır hədiyyə etmişdi. 350 baş qatır ilə 40 baş da at hökumətə satmışdılar. Əvəzinə isə İrəvan dabbağxanasında hazırlanan gönlərdən alıb aparmışdılar. Bu gönlərin əksəriyyəti isə İrəvanda müsəlman dabbağlarının hazır etdikləri və onlardan qalıb da hökumət tərəfindən zəbt olunan gönlər idi. Erməni Cümhuriyyətində ətraf ilə mal mübadiləsi üçün yalnız konyak və gön vardır. Bundan başqa bir şeyləri yox idi.

İrəvan quberniyasında pambıq hasil olunurdu ki, o da ancaq İrəvan quberniyasının "müsəlmanıstan"ında idi, müsəlmanlara məxsus idi. Qulp və Naxçıvan duzları, Zəngibasarın düyüsü, Sürməlinin, Şərurun bol-bol taxılları, pambıqları, üzümləri və sair məhsulları, Naxçıvan və

Ordubadın müxtəlif meyvələri, Milli və Çığının işlənməmiş daş kömürü və meşəlikləri və qeyriləri... Bunların hamısı İrəvan quberniyasının "müsəlmanıstan"ında mövcud idi, müsəlmanlara aid idi.

İrəvanda hökumət tərəfindən təsis edilmiş xüsusi çörəkçi dükanlarından kartoçka ilə buraxılmaqda olan çörək girvənkəsi 4 manat 50 qəpiyə satılırdı. Bu çörək isə ancaq erməni möhtaclarına verilib, müsəlmanlara qətiyyən verilmirdi. İrəvanın müsəlman möhtacları və Novo-Bayəzid mahalından öz kəndlərindən təkrar qovalanıb gəlmiş müsəlman kəndliləri bütövlükcə ac və möhtac qalmışdır. Bunların isə yeganə ümid və pənah yerləri Azərbaycan Sosial Təminat Nazirliyinin İrəvan vəkilləri Məşhədi Nəsrulla Əmirovun və Zülfüqar bəy Makinskinin qapıları idi. Zavallı müsəlman möhtacları bu qapılar qabağında da beş günlərcə günəş və yağmur altında dayanmağa məcbur idilər və beləcə günlərcə azuqə ianəsi gözləyirdilər.

O zaman ermənilər yalnız Böyük Məzrə kəndinə 109 top gülləsi buraxmışdı. Göyçə göl müsəlmanları içindən yanvarın 17-sində çıxıb gəlmiş məlumat sahibi bir cavan orada gözü ilə gördüyü əhvalatı belə danışdı:

"Mən Qazaxlıyam. Göyçə gölü ətrafı müsəlman kəndlərindən Daşkəndinə qonaq getmişdim. Məndən beş-altı gün qabaq çox hissəsi "qaçqın" ermənilərdən və yarısı atlı, yarısı da piyada [3] olaraq 750 nəfərdən ibarət erməni əsgərləri 3 pulemyot və 2 ədəd topla bərabər Novo-Bayəzid müsəlman kəndlərindən rəsmi surətdə xərc yığmaq adı ilə bu kəndlərin üstünə gəlmişdi. Bu erməni əsgərlərinin müsəlman kəndlərindəki rəftar və davranışları belə idi: Erməni əsgərləri hansı müsəlman kəndinə çatırdılarsa, qabaqca o kənd camaatının qalan silahlarını alırdılar. Sonra kəndlilərin öhdəsindən gələ bilmədiyində zorla ağır-ağır xərclər alırdılar. Belə ki, əsgərlər mən özüm mövcud olduğum Böyük Məzrə kəndi müsəlmanlarını 34 min manat xərc verməyə məcbur etdilər. Bundan əlavə, həmin kənddən 50 arabaya qədər ot, 5 xarvar taxıl, 10 xarvar arpa, 20-30-a qədər at apardıqları kimi, evlərdən arvad ziynətləri qəbilindən daha bir çox cəvahirat, arvad və kişi təzə paltarlarını talayıb apardılar. Sonra "Daşkənd" deyilən kənddən otlu, taxıllı, neftli və talan olaraq 280 min manatlıq qarət və zəbt etdilər. Bundan başqa həmin kəndin sakini Məşhədi Qasımın 120 baş qoyununu, 24 baş qaramalını, 50 araba otunu və 10 min manatlıq ev əşyasını aldılar. Eləcə də Canəhmədli kəndindən 15 at, 30 araba ot, nəğd və taxıl olmaqla 15 min manatlıq əşya və neft aldıqları kimi arvad, kişi, hər kəsin əynində təzə paltar görürdülərsə, "bunlar xəzinəyə məxsusdur" deyib, libasını əynindən çıxarırdılar. İnəkdağı kəndindən taxıl, ot, at və qeyri bu kimi camaatın lazımlı şeylərini, avadanlığın, 50-60 min manatlığa qədər alıb apardılar.

Qaçqınların vəziyyəti son dərəcədə ağır idi: ərzaq çatışmazlığı, toxum və mal-qaranın məhv edilməsi, yaşayış evlərinin yandırılması əhalini aclıq və səfalətə sürükləmişdi.

Bunun kimi Qaraimanlı, Sucalı, Bala Məzrə və daha qalan o ətrafdakı müsəlman kəndlərini bu növlə taladılar. Erməni əsgərləri hər kəndin üstünə getdikləri vaxt ümumən, yəni 750 nəfəri də topları, pulemyotları ilə bərabər o kəndin üstünə gəlib müsəlmanları şərləyirdilər, talayırdılar. Sonra yenə birlikdə eyni hadisə ilə o biri müsəlman kəndinin üstünə gedirdilər. Beləliklə, İrəvan quberniyasının Novo-Bayəzid mahalında ermənilər içində qalıb, erməni hökumətinə təslim olmuş olan müsəlman kəndlərinin camaatı faciəvi bir hal keçirirdi. Yolları qalın qar təbəqələri basdığı üçün heç bir tərəfə qaça bilmirdi. Sizi inandırıram, əgər mən çıxıb bu tərəfə gəlməsəydim və sizinlə görüşməsəydim, nə bilim onların halından kim xəbər tuta biləcəkdi." Həmsöhbətimiz, söz danışan şəxs dərin yanıqlı bir ah çəkəndən sonra hüznlü bir hal ilə sözünə davam etdi: "Daşkənd sakinlərindən bir kişi namusunu saxlamaq üçün arvadını özgə bir kəndə qaçırmaqla, erməni əsgərlərinin təcavüzündən qurtara bilmişdi. Çünki nizami erməni əsgərləri camaatdan xərc yığdıqları əsnada, müsəlman qızlarına və arvadlarına da təcavüz edirdilər" [3].

Azərbaycan qəzetinin 1919-cu il 273 nömrəli buraxılışında qeyd olunur ki, İrəvan quberniyasının Novo-Bayəzid sancağının Başkənd kəndi nümayəndələri Məşhədi Hüseyn İsmayıl oğlu, Əli İbrahim oğlu, Cabaq Meysiya oğlu xəbər vermişlər ki, 13 gün bundan qabaq onların kəndi erməni qoşunları, quldurları və mühafizləri tərəfindən dağıdılıb, viran qoyulmuşdur. Təxribat edənlərin başında zabitlər, qəza rəisləri və polis müfəttişləri dururdular. 300 nəfər adam qətl edilmişdir. Adı çəkilən kəndin qaçqınlarından 17 nəfəri Yelenovski yanında ermənilər tərəfindən tutulmuşdu. Bunların ikisi qaçıb qurtarmağa müvəffəq oldularsa da, qalanı kəsilmişdir.

Eçmiədzin qəzasının Tixt kəndi əhalisindən Məhəmmədəli Malandar oğlu, Əli Həsənqulu oğlu, Allahverdi Məşhədi Mərdan oğlu xəbər vermişlər ki, 10 gün bundan əvvəl onların da kəndi fəlakətə uğramışdır. 600 nəfər əhalisindən 60 nəfər sağ qalmışdır. İrəvan qəzasının Axaraçıq kəndinin sakini Molla Cabbar Kərbəlayı Həsən oğlu xəbər verir ki, 9 gün əvvəl kənd əhalisini toplayıb üzərilərinə dəhşətli atəş açmışdılar. Bu hadisəni Qazax qəzasına gəlmiş qaçqınlar da isbat edir. Aldığımız məlumata görə, avqustun 20-dən 30-dək 8 müsəlman kəndi talan edilmişdir. Qaçqınların simaları dəhşətli olduğu kimi, ac-yalavac açıq havada yaşayırdılar. Onların aralarında xəstə və yaralılar da vardır.

Müsəlmanlara edilən qətl və qarət davam etməkdə idi. Andranik, Hamazasp, Dro və digər komandirlərin dəstələri İrəvan quberniyasında müsəlman əhaliyə qarşı hücumların aparıcı gücü idi. Hamazasp kəndə daxil olarkən "bir türk belə qalmamalıdır" deyə əmr vermişdir. Müsəlmanları gecə evlərində, gündüz bazarda, hər qisim və hər yerdə lazım görərlərsə, ermənilər soyurlar, talayırlar, döyürlər, öldürürlər. Ağabəy Topçubaşov adlı bir müsəlmandan ermənilər 40 min manat pul istəmişlər. Vermədiyinə görə müsəlman məhəlləsində adı çəkilən şəxs olduğu evinin qapısı qabağında ermənilər tərəfindən üç güllə ilə vurulub ağır və ölümcül halda yaralanmışdır. Qəhvəçi Hacı Əli mülkünü satıb pulunu aldıqdan sonra evinə getdiyi zaman, yolda ermənilər tərəfindən öldürülüb pulları aparılmışdır. Gəncəli Abbasın İrəvanda Naib küçəsində evinə ermənilər gecə ikən tökülüb arvad paltarı, qızıl və digər əşyasını talayıb aparmışdı. Gəncəli Hacı Məhəmmədi evinin qabağında ermənilər tutub var-yoxunu almışdır [2].

Azərbaycanın Ermənistandakı Daimi Nümayəndəliyinin verdiyi məlumata görə təkcə 1919-cu ildə Novo-Bəyazid, Eçmiədzin və İrəvan qəzalarında erməni silahlı qüvvələri tərəfindən evləri dağıdılmış, didərgin salınmış müsəlman əhalisinin sayı 200 minə çatırdı. Himayəçilik Nazirliyinin Ermənistandakı nümayəndəsinin verdiyi məlumatlar əsasında nazirlik Ermənistandakı əhaliyə yardım göstərilməsi haqqında Parlamentə qərar layihəsi təqdim etmişdi. 1919-cu ilin iyulunda bu məqsədlə 3 milyon manat vəsait ayrılmışdı. Bu vəsaitin hesabına Ermənistana 15 vaqon un, taxıl və arpa göndərilmişdi. Bundan əlavə, 1919-cu il sentyabrın 1-dən etibarən İrəvanda müsəlmanlar üçün ambulatoriya açılmış, orada 85 nəfərlik uşaq evi təşkil edilmişdi. Hansı ki, sonralar bu uşaq evi Amerikanın Uşaqlara Yardım Komitəsinin sərəncamına verilmişdi. Ermənistandan və Qars vilayətindən qaçqın düşən müsəlmanlara yardım göstərilməsi üçün onların keçdiyi yolların üzərində səyyar qida məntəqələri (pulsuz yeməkxanalar) açılmışdı. Himayəçilik Nazirliyinin göstərişi ilə belə qida məntəqələri Aşağı Saral stansiyasında və Tiflis yaxınlığında açılmışdı.

**Nəticə**

*AXC-nin süqutu ərəfəsində 1918-ci ilədək indiki Ermənistan ərazisində yaşamış 575 min nəfər müsəlman əhalidən cəmisi 10 min nəfərdən bir qədər artıq türk (azərbaycanlı) əhali qalmışdı. Deməli, 1918-1920-ci illərdə Ermənistanda soyqırıma məruz qoyulan yarım milyondan artıq azərbaycanlı əhalidən öz canlarını xilas edə bilən əhalinin əsas hissəsi qaçqın kimi Azərbaycanda sığınacaq tapmışdı.*

*Bu dövr yalnız kütləvi insan tələfatı ilə deyil, həm də minillik mədəni irsin dağıdılması, bölgənin demoqrafik xəritəsinin dəyişdirilməsi və yüz minlərlə insanın öz yurd-yuvasından məhrum edilməsi ilə nəticələnmişdir.*

*İrəvan quberniyasında müsəlman əhaliyə qarşı törədilmiş zorakılıqlar Azərbaycan xalqının tarixi yaddaşında dərin iz buraxmışdır. Azərbaycan qəzetinin səhifələrində əks olunan bu faciələr təkcə milli mətbuat nümunəsi deyil, eyni zamanda mühüm tarixi mənbədir. Bu materiallar XX əsrin əvvəllərində azərbaycanlıların üzləşdiyi etnik təmizləmə siyasətinin miqyasını və humanitar fəlakətin dərinliyini aydın şəkildə ortaya qoyur. Bu materiallar təkcə informasiya xarakteri daşımır, eyni zamanda beynəlxalq ictimaiyyətə ünvanlanan bir haray rolunu oynayırdı.*

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Qərbi Azərbaycan – Virtual Qərbi Azərbaycan (qerbiazerbaycan.com)
2. Erməni Cümhuriyyətində: İrəvan müsəlmanlarının halı, 18 sentyabr 1919, № 276
3. İrəvan erməni-müsəlman məsələsi, 3 fevral 1919, № 104
4. İrəvan quberniyasi müsəlman nümayəndələrinin general tomsona verdikləri yaddaşnamə // Azərbaycan qəzeti. - 1918. - 15 noyabr.- № 40. - S. 2.
5. İrəvan quberniyası müsəlmanlarının halı //Azərbaycan qəzeti. – 11 noyabr 1918.- № 36.- S. 3.
6. Nazim Mustafa. Qərbi Azərbaycan: faktlar, sənədlər, reallıqlar. Orxan: NPM, Baki: 2025, 108 s.

**Sevinj Mukhtarova**

## THE GRIEVANCE OF A DESTROYED NATION: THE TRAGEDY OF THE MUSLIMS OF IRAVAN ON THE PAGES OF THE “AZERBAIJAN” NEWSPAPER

*Summary*

Azerbaijan” was a socio-political, literary and artistic newspaper, so its subject matter was very wide. The materials on the Karabakh and Zangezur regions, mainly on the Iravan Governorate, which are of particular importance today, are of great interest in the newspaper. The years 1918-1920, in addition to being a period when the political map of the South Caucasus was reshaped, were also remembered for the mass massacres, forced displacement and ethnic cleansing policies for the Azerbaijani Muslim population living in the Iravan Governorate. The creation of the Republic of Armenia and the activities of the Dashnak armed groups completely changed the demographic structure of the Azerbaijani population in the region.

The territorial disputes that existed between the Transcaucasian republics in 1918-1920 took on a rather complex character. A characteristic feature of these conflicts was that the ethnic Muslim population of the disputed territories, as a rule, was the victim, subjected to aggression by neighboring republics, especially the Armenian armed forces.

As a result, in 1918-1920 In the 1960s, the majority of the population who managed to save their lives from the genocide in Armenia, more than half a million Azerbaijanis, found refuge in Azerbaijan as refugees.

This period resulted not only in massive human losses, but also in the destruction of millennia of cultural heritage, the change in the demographic map of the region, and the displacement of hundreds of thousands of people from their homelands.

***Key words:*** *APR, Azerbaijan newspaper, Iravan province, Muslims, tragedy*

*Tarix üzrə elmlər doktoru, dosent*
***Tahirə Həsənzadə*** *tərəfindən çapa tövsiyə olunmuşdur.*